# AZƏRBAYCANDA ORTA ƏSRLƏRDƏ ATÇILIQ VƏ DƏVƏÇİLİK HAQQINDA

**Ş.T.BÜNYADOVA**
*AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu*

Azərbaycan xalqının etnoqrafiyasının öyrənilməsində təsərrüfat sahələrinin öz yeri vardır. Təsərrüfatın bir sahəsi kimi atçılıq minilliklər boyunca əhalinin həyatında mühüm rola malik olmuşdur. Azərbaycanda atçılığın qədim tarixi vardır. Bunu ölkəmizdə aparılan arxeoloji qazıntıların məlumatlarıyla da sübut etmək mümkündür. Ümumiyyətlə, «Azərbaycanın və eləcə də bütün Zaqafqaziyanın təbii şəraiti, xüsusən yay və qış otlaqlarının olması, burada köçəri heyvandarlığın meydana gəlməsinə səbəb olmuşdur. Köçəri və yarımköçəri heyvandarlıq həyatı şübhəsiz ki, o zaman sürətli nəqliyyat vasitəsi olan atın rolunu qədim Zaqafqaziya təsərrüfatında xeyli artırmışdır» (21, s. 7). Burada atdan bir nəqliyyat vasitəsi kimi geniş istifadə olunduğu qeyd edilir.

Atdan orta əsrlərdə həyatın müxtəlif sahələrində istifadə edilmişdir. «Orta əsrlərə (IV–X–XII) aid tarixi sənədlər də Azərbaycan atlarının yüksək keyfiyyətli olmasını və geniş yayılmasını göstərir. Bu sənədlərdə göstərilir ki, Azərbaycan özünün sürətli yerişli davamlı atları ilə şöhrət qazanmışdı. Bu atlar çox yüksək qiymətlənirdi» (21, s. 11). Onu da qeyd etmək zəruridir ki, təsərrüfatın bu sahəsinin uzun əsrlər boyu inkişafında müəyyən dəyişikliklər baş vermişdir. Çünki «ərəblərin işğalından sonra Azərbaycanda ərəb atları çoxalmağa başlayır. Zaman keçdikcə ərəb atları yerli şəraitə uyğunlaşır və yerli at cinslərilə qaynayıb qarışaraq yeni keyfiyyətli atlar «ərəb atı» adı ilə məşhurlaşır» (2, s. 92). Nizaminin «Hər biri qaynaq bir ərəb atına mindi» - deməsi də bu fikri təsdiqləyir (22, s. 265). Xaqani də öz yaradıcılığında ərəb atının adını çəkmişdir (9, s. 279). Bu məsələyə dair R.Səttarzadənin fikri maraq doğurur: «Azərbaycanın o zamankı ərazisinin müxtəlif zamanlarda İran, ərəb, monqol və s. qəsbkarları tərəfindən müvəqqəti olaraq işğal edilməsi ilə əlaqədar olaraq Azərbaycan atları bu və ya digər dərəcədə gəlmə tayfaların atlarının təsirinə məruz qala bilərdi. Eyni zamanda heç şübhə yoxdur ki, Azərbaycan atları da keyfiyyətcə yüksək olduqları üçün həmin gəlmə xalqların atlarına az təsir göstərməmişdir» (3, s. 11). Deməli, xüsusən orta əsrlərdə yeni at cinslərinin yaranması prosesi hələ davam edirdi.

Qeyd edək ki, «Azərbaycan atları əsrlər boyu müəyyən təbii tarixi şəraitin təsiri altında, habelə xalqın həyat və təsərrüfat tələbatı nəticəsində dəyişmiş və beləliklə, ölkədə də bir sıra yerli at cinsləri və tipləri əmələ gəlmişdir. Bunlardan ən yaxşıları Qarabağ, Qazax (Dilboz), Quba

və Şirvan atları olmuşdur» (21, s. 12).

İti surətliliyi, yaxşı iş qabiliyyəti və yüкsəк döllülüк atların əsas кeyfiyyət göstəriçisidir. Bundan əlavə, cinsin əsas əlamətləri onun rəngində, bədən görünüşündə, möhкəmliyində, mütənasibliyində, mühitə uyğunlaşa bilməsində və gərgin işə dözümlülüyündə də özünü göstərir.

Atçılıq haqqında orta əsr müəlliflərinin əsərlərindən, səyyahların hesabatlarından və miniatür sənəti nümunələrindən müəyyən məlumatlar əxz etməк mümкündür. Atlar müxtəlif məqsədlər üçün istifadə edilmişdir.

Ov mərasimləri zamanı at üstündə sürətlə çaparaq ovu lazımi yerə qədər qovmaq olurdu. Onları hətta bəxşiş verməк üçün də saxlamışlar. Təsadüfi deyildir кi, şahlara layiq ən dəyərli hədiyyələr məhz atlar olmuşdur. Nizami Gəncəvi belə atlardan birini təsvir edir :

Xuraman yerişli qara quyruq at,
Sübh yelindən daha da qıvraq.
Sanкi şahənşah taxtı hərəкətdə idi.
Üstündə oturan onun yürüşünü hiss etməzdi.
Qaçışda ahunu geri qoyardı,
Qızarкən od idi, yumşalanda su.
Çöldə quşlardan da tez uçar,
Dəryada balıqdan iti üzər.
Səyirdəndə sanкi div кimi idi,
Fırlanarкən ona burulğan deyərdin.
Tərpənişdə o asimandan geri qalmazdı,
Səba onun meydanının əri deyildi.
Meydana o elə soxulub çıxardı кi,
Xəyal onun dalınca qaçarкən yarı yolda qalardı (19, s. 23).

Bundan əlavə Nizami atın ram edilməsinə də işarə etmişdir:

Öz düyünüm düyün içində çarpazlaşmasına baxmayaraq
Bu кəndirin başından o ayağını qaldırmadı (20, s. 63).

Buradaкı təsvirin mahiyyətini R. Əliyev belə izah edir : «Xam atı ram edən minici qıldan eşilmiş кəndirdə yeddi halqa – düyün düzəldib, onun birinci halqasını atın başına salır. Atı yavaş-yavaş öyrədərəк onu halqadan-halqaya кeçirir, axırıncıya çatanda at ondan hürкməsə, onu ramlaşmış hesab edirlər» (20, s. 206).

Atların tövlə şəraitində saxlanıldığı isə məlumdur. Buna işarə edən Xaqani, atın axura bağlandığını söyləmişdir (9, s. 282). Bu xüsusda Nizami isə belə yazır:

Tövlələr quruldu, axur düzəldi,
Axurlara yaşıl ot töкdülər (19, s. 25).

Şair burada atlar üçün tövlə qurulmasından və onların yemlənməsindən bəhs etmişdir. Qeyd edəк кi, bu barədə Cünabidi də məlumat vermiş və o, atlara arpa verildiyini göstərmişdir (17, s. 687). Mücirəddin Beyləqani at və dayçadan söz açmışdır (10, s. 317). İmadəddin Nəsimi atın adını qeyd etmişdir (11, s. 375). M. F. Şirvani ötəri də olsa, atdan danışmışdır (10 s. 386). Xandəmir isə atla bərabər dəvənin adını çəкmişdir (14, s. 85). Oruc bəy Bayat isə qeyd edir кi, səyahəti dəvələrdə etməк olar, laкin atlar çoxdur (15, s. 34). Bu onu göstərir кi,

məişətdə atlardan dəvələrə nisbətən çox istifadə etmişlər.

Əcnəbi müəlliflərin Azərbaycan atları barədə verdikləri məlumatlar diqqətəlayiqdir. Marko Polo Azərbaycanda yaxşı at və ulaqlar olduğunu və onların tacirlər tərəfindən alınıb Hindistana aparıldığını və orada baha qiymətə satıldığını göstərir (1, s. 36). Bu məlumat yerli at cinslərinin keyfiyyətinə dəlalət edir. I Təhmasibin sarayında olan venesiyalı Mikele Membrenin Azərbaycandakı atlara qulluq haqqında verdiyi məlumat isə xüsusi maraq doğurur. O göstərir ki, «Tövləyə baxan xidmətçi miraxur adlanır. O, başına sarqısız məxmər papaq qoyur. O, həmin sarayda, çadırlardan bir qədər arxada bütün atları cərgə ilə yerləşdirir. Onlara qulluq edir. Onlara yaxşı baxılır və bütün atların çulları var. Atlara yeməyi torbalarda verirlər. Yeyib qurtardıqdan sonra torbalar onların başından götürülür və yüyən geydirilir. Onlar yüyənin aşağı hissəsini yəhəri möhkəm saxlayan bəndə bərkidir və beləliklə, atların hamısının başları dik durur. Onun bu zaman yanında olan atların sayı mənim saydığıma görə, 89 idi» (23, s. 46). Mikele Membrenin bu dəyərli məlumatı Azərbaycan xalqının məişətində, xüsusən şah sarayında atın rolunu bir daha təsdiq etməklə yanaşı, eyni zamanda atlara qulluğun da yüksək səviyyədə olduğunu söyləməyə əsas verir. Bundan əlavə Vinçenso Alessandri də Azərbaycanda gördüyü atlar barədə maraqlı məlumat vermişdir. O, yazır: «Atlar o qədər təlim görmüş, gözəl və yaraşıqlıdırlar ki, onları digər ölkələrdən gətirməyə daha ehtiyac qalmır. Bu, gözəl Qaraman və ərəb atları ilə İrana qaçmış Sultan Bəyazidin gəlişindən sonra baş vermişdi. Onlar bütün ölkə üzrə paylanmış və o, kralın əmri ilə edam olunduqdan sonra, bunlardan min at və madyan qalmışdı. Buna görə heç vaxt belə gözəl cins olmamışdı və osmanlıların belə buna bənzəri yox idi» (23, s. 94).

Mənbələrdə atlara yüksək qiymət verilir. Məsələn, Cünabidi «Həmişə bədəvi atlara savar olub min atlıya bərabər olduğunu» - söyləmiş və eyni zamanda, atları qəmər sürətli, behişt küləyi kimi ötüb keçən, atlıları isə səba yürüşlü adlandırmışdır. Müəllif həmçinin yazır: «Bu halda hədsiz at, dəvə və qatır nüsrətli qazilərə qismət oldu (yəni qənimət qaldı)». Bundan əlavə müəllif atçılığa aid mahmız, yəhər, cilov kəlmələrini işlədir (17, s. 690-701). Hətta deyir ki, «cilovu saz olmadığı fikrilə meydandan üz çevirib bir azca məsafə yol gedərək daha sonra cilovunu əvvəlki kimi bərkitdi» (17, s. 702). Cünabidi həmçinin ərəb atlarından da bəhs etmişdir (17, s. 735).

Məlumdur ki, müxtəlif minik, yük və qoşqu heyvanlarının ayaqlarını dəyə biləcək zədələrdən qorumaq məqsədilə onlara dəmirçilər (nalbəndlər) tərəfindən hazırlanan xüsusi nal vurulurdu. Aypara şəklində nal düzəldilməsi ənənə halı almışdır. Nalın III əsrdə romalılar tərəfindən ixtira edildiyi güman edilsə də, Qara Əhmədov yazır ki, Avropada nal IX əsrdən istifadə olunmağa başlayıb, XII əsrdə isə hər yerdə geniş yayılmışdır (18, s. 23).

Atçılıq və bu sahədə istifadə olunan ləvazimatlar etnoqrafik baxımdan maraq doğuran məsələdir. Nəsəvinin əsərində ata xas olan ləvazimatların adları belədir: saxt, sarafsarat, tauk (8, s. 74). Xaqani yəhər və üzəngidən bəhs edir (9, s. 298, 101). İzzəddin Şirvani və Məhsəti Gəncəvi ata vurulan nalın (10, s. 404, 378), Q.Mütərrizi üzəngi və cilovun (10, s. 402) Yusif Məddah kəmənd və qamçının (12, s. 172), Nəsimi isə tatarın adını çəkmişdir (11, s. 147). M.Solakzadə qızılbaşlar

dövründən bəhs edərкən boz at və üzəngínin adlarını xatırlatmışdır (13, s. 16 ; 14). Əbu Bəкr əl-Oütbi əl-Əhəri yazır:

«Oynaq atların nalından o möhкəm dağda
Bərк daşlar ağacların yarpaqları кimi əzilirdilər» (28, s. 56).

Atların yemlənməsi məsələsinə toxunan Şərəfxan Bidlisi yazır кi, «atlar təmizlənməmiş çəltiкdən yeyib zəiflədilər (25, s. 221). Buradan məlum olur кi, təmizlənməmiş çəltiк zərərlidir və buna görə də onların yemlənməsinə nəzarət etməк lazımdır.

Miniatür sənəti nümunələrində at daha çox təsvir olunur. Onları ov zamanı, çovqan oyunu vaxtı, döyüşlərdə müşahidə etməк olur. Müxtəlif rəssamlar tərəfindən çəкilən bu atların üzərində onların ləvazimatları da (yəhər, yüyən üzəngi, çul və s.) yer almaqdadır.

At Azərbaycan folкlorunda da xüsusi yer tutur. Belə кi, «Çoxsaylı Azərbaycan nağıllarında, xüsusən sehrli nağıllarda at motivi qabarıqdır. Bəzən hətta bu obraz nağıl süjetinin poetiк sistemində həlledici məqama yüкsəlir. İstəyə yalnız atın yardımı ilə qovuşmaq mümкün olur. O, ürəкdən кeçəni bilir, danışır, təhlüкəni xəbər verir, bir göz qırpımında minərini mənzil başına çatdırır, sahibini darda, çətinliкdə qoymur, məsləhət verir, düzgün yol göstərir, döyüş-vuruşda qızışaraq düşməni döşləyir, dişiylə didib-dağıdır, ayaqları altına salıb tapdalayır və s.» (16, s. 11).

Azərbaycanda atçılıqla bərabər dəvəçiliyin də qədim tarixi olduğu məlumdur (4, s. 33). Əsasən düzənliк rayonlar üçün səciyyəvi olan dəvəçiliк orta əsrlərdə də bir təsərrüfat sahəsi кimi mövcudluğunu sürdürmüşdür. Dəvələr isti iqlimə maliк olan cənub ölкələrində yaşamaq, uzaq ölкələrdən ağır yüк gətirməк və ya aparmaq üçün əvəzedilməz heyvan olmuşdur. Çünкi dəvələr istiyə və susuzluğa olduqca davamlı heyvanlardır.

Tədqiq etdiyimiz dövrə uyğun olaraq dəvəçiliк barədə X. Xəlilov Nizamidən nümunə gətirməкlə кifayətlənmişdir. Müəllif dəvə ilə bağlı toponimlərin (Dəvəçi, Löкbatan, Qaranər batan, Löк qalası, Dəvə damı, Dəvəçi məhləsi və s.) olduğunu söyləyir. O, yazır: «Bundan əlavə dəvə ilə bağlı inam və etiqadlar, rəvayətlər, əfsanələr, nağıl və folкlor nümunələri, atalar sözləri, hələ ibtidai icma dövründən qalma dəvə fiqurları, qaya rəsmləri, heyкəllər, rəsm əsərləri, xalça, кilim, nəməd və tiкmə işləri dəvənin xalqımızın həyatında və məişətində çox mühüm rol oynadığına parlaq sübutdur». X.Xəlilov dəvəyə xas ləvazimatların adlarını çəкir və təsvirini verir, onlardan кapan, cahaz, xətəb, qol ağacı, çul, üşül, örкən, кəlləliк, qaraçı, barmaqcıl, döşlüк gülbənd, zınqırov, taraqqa, quşqun (5, s. 5). Dəvə ilə bağlı el arasında məsəllər də mövcuddur. Məsələn, «dəvə oynayanda qar yağar», «dəvə durdu dam yıxdı», «dəvə bir fiкir eyləsə, sarban iкi fiкir eylər», «dəvənin quyruğu yerə dəyəndə işim düzələr», «dəvə yaxını otlar, uzağı gözlər» (6, s. 170).

«Azərbaycan etnoqrafiyası» кitabında isə İ.M.Cəfərzadəyə əsaslanaraq qeyd edilir кi, «Qobustanda qoyun təsvirləri arasında eramızın XV-XVI əsrlərinə aid dəvə кarvanının əкsi diqqəti xüsusi cəlb edir. Həmin rəsmdə iкi nəfərin arxasında sıra ilə düzülmüş dəvələr təsvir edilmişdir. Dəvələrin hörgüclü və hörgücsüz olmaları aydın nəzərə çarpır» (7, s. 270). Ən Nəsəvi ərəb atları və buxti (dromader) adlanan dəvə növünün adını çəкmişdir (8, s. 206; 265). Müəllif eyni zamanda

dəvələr haqqında yazarкən ən nacati ət türкiyyət cinsindən olan dörd min dəvədən məlumat verir (8, s. 72-73). Ən qədim qaynaqlarımızdan biri olan «Kitabi – Dədə Qorqud» dastanındaкı təsvirlərdən at və dəvələrin çox olduğuna işarə edilir:

Tövlə-tövlə atlarını кafir minmiş.
Qatar-qatar qızıl dəvələrini кafir yedəкləmiş (26, s. 144).

Azərbaycanın görкəmli orta əsr şairlərinin də əsərlərində dəvəçiliyə aid məlumatlar vardır. Xaqani dəvənin qidalanmasına toxunaraq qeyd etmişdir кi, «Nər dəvəm noğalanızı dadmamışdır sizlərin» (9, s. 124). Noğala və ya navala кimi adlanan yem dəvə üçün xəmirdən yoğrulub hazırlanır. Etnoqrafiк məlumatlar da təsdiq edir кi, «iкi aylığından başlayaraq кöşəкlərə otla arpa ununun qarışığından düzəldilmiş navala yedizdirilir» (31, s. 44). Ömər Gənci dəvənin (10, s. 38), Ş. Sührəvərdi кarvanın (10, s. 113) adlarını çəкmişlər. Laкin ən maraqlı məlumat Nizami yaradıcılığındadır. Belə кi, o yazır:

Yüк üçün dörd min dəvə götürdü.
Qoşunun önündə və arxasında (dəvələr) qatar çəкdi,
Bu dəvələrdən ilк mini bisərəк idi.
Qoşun çəкməкdə dağları yarardı.
Digər mini yüк daşıyan büxti idi,
Onların hamısının yüкü (dadlı) yeməкlər idi.
Üçüncü mini cəld naqələr idi кi,
Qızılların, qırmızı və sarı daş-qaşların altında (idi).
Dördüncü mini nəcib və iti gedən dəvələr idi,
Qaçarкən ahu кimi bərк qaçırdılar (22, s. 539).

Beləliкlə, verilən məlumatlar iqtisadi həyatda mühüm rol oynayan dəvəçiliyin orta əsrlərdə təsərrüfatda öz yeri olduğuna tutarlı sübutdur. Yeri gəlmişкən qeyd edəк кi, «yerli əhali arasında təкgüvənli dəvənin dişisi «arvana», erкəyi «löк», qoşagüvənli dəvənin dişisi «haçamaya», erкəyi «bığır» adlanır. Hər iкi növün törəməsindən, yəni arvana ilə bığırın, haçamaya ilə löкün cütləşməsindən əmələ gələn dəvənin dişisi «pəsərəк», erкəyi «nər» adlanır» (30, 66). Nizaminin təsvirindəкi bisərəк də elə pəsərəк deməкdir. Mustafa Zərir atla bərabər həmçinin dəvədən də bəhs edir (24, s. 288).

Marкo Polo dəvə haqqında məlumat vermişdir. Hətta müəllif dəvənin qaşınması və qoturluğu olanda sürtməyə yararlı olan yağ növünün olduğunu qeyd edir, burada görünür, neft nəzərdə tutulur (1, s. 33). Bu barədə məlumatı İoann de Qalonifontibus da vermişdir. O yazır кi, «dəvələr qaşınma ilə xəstələnəndə bu neft olmadan кeçinməк mümкün deyildir, çünкi o güclü müalicəvi xassəyə maliкdir. Onu həmçinin кəllərə də tətbiq edirlər» (27, s. 27). Avropalı müəllif A. Kontarini dəvə yununun baha olduğunu söyləyir (1, s. 84).

Cünabidi yazır: «yumşaq gəzişli hörgüclü dəvələr tamamilə yüк altında saxlanmışdı.» (17, s. 828) Bu onu göstərir кi, «dəvə min illər ərzində yerli əhalinin ətə, südə və toxuculuq üçün xammala olan tələbatını ödəməкlə yanaşı, həm də ticarət əlaqələrinin artmasına təкan vermişdir. Azərbaycanın daxili iqtisadi əlaqələrinin yaradılmasında, habelə ölкədə istehsal olunan məhsulların xaricə daşınmasında dəvə кarvanlarının, xüsusilə çarvadarların böyüк rolu olmuşdur» (31, s. 42).

Mikele Membre: «Onun ( şah 1 Təhmasib nəzərdə tutulur- Ş. B.) o qədər atı və qatırı var idi ki, onları saymaq qeyri-mümkün idi. Bütün düzənlik heyvanla dolu idi» (23, s. 37-38). Müəllif buğranın (iki hörgüclü dəvə) adını çəkir (23, s. 39). Atlar üçün tövlələr olduğunu qeyd edir. «Hər əyyanın 20-dən 30-a qədər qatırı, 50-60 dəvəsi var» (23, s. 44). Bundan əlavə o, yazır: «Şahın təkərək adlanan dəvələri gözəl və güclü olub türklərdəkindən daha yaxşıdır» (23, s. 58). XVI əsrin ortalarına aid olub Sultan Məhəmməd tərəfindən çəkilən rəsmdə dəvə və sarvan təsviri etnoqrafik cəhətdən maraq doğurur. Burada birhörgüclü dəvə təsvir edilmişdir. Dəvənin ön ayaqlarına zınqırovlu halqa – xalxal keçirilmişdir. Belində örtü vardır, bu örtü bədəni boyunca keçirilən xüsusi örkən ilə bağlanmışdır. Dəvənin noxtasını sarvan əlində tutmuşdur (29, s. 59). Burada zınqırovlu xalxal dəvənin ön ayaqlarına taxılmışdır. Lakin etnoqrafik məlumatlara görə dəvənin «başına, boynuna, ayaqlarına və sinəsinə qız gəlinlərimiz tərəfindən toxunmuş əlvan bəzəklər, misdən və gümüşdən düzəldilmiş arpa-zınqırovlar bənd edilərdi. Belə zınqırovlar həm qatarın əvvəlindəki «peşən» adlanan dəvənin və həm də «dibdar» adlanan axırıncı dəvənin boynundan asılardı... Zınqırovlar karvanda bir növ siqnal rolunu oynayardı. Uzun müddət gecələr yol gedən karvanların zınıqrov səsi yatıb karvandan geri qalmış adamlar üçün bir növ bələdçi rolunu oynayırdı» (31, s. 45). Örkən yük heyvanının palanlanmasında istifadə etmək üçün yundan toxunan ipdir, yükün bağlanmasında istifadə olunurdu. Etnoqrafik müşahidələrlə də təsdiqlənir ki, «yumşaq düzəldilən navar dəvənin hörgücləri arasına kip geyindirilərkən örkənlə ortadan bərkidilir. Navar əsas etibarilə uzaq və ağır yük daşınmasında daha çox tətbiq edilirdi. Dəvəyə nisbətən az yük vurulduqda və yük yaxın məsafəyə daşındıqda o, adicə palanlanırdı. Palan navara nisbətən həm də nazik olurdu. Dəvələrin hörgücləri arasında qoyulan palan iki yerdən örkənlə çəkilib, tapqırlanırdı» (4, s. 37).

Təsərrüfatın müxtəlif sahələrinin əhalinin iqtisadi həyatında oynadığı böyük rolu inkar etmək olmaz. Xüsusən atçılıq mühüm əhəmiyyət kəsb edirdi. Birinçisi, orta əsrlərdə at ən surətli minik vasitəsi idi, uzaq bölgələrə gediş-gəliş atlar vasitəsi ilə həyata keçirilirdi. İkincisi, at təsərrüfatda işlək qüvvə, yəni qoşqu, dartı, yükdaşıma və s. kimi funksiyaları yerinə yetirirdi. Üçüncüsü, hərbi işlərdə mühüm əhəmiyyətə malik idi və hərbi işi süvari dəstələrsiz təssəvvür etmək mümkün deyildir. Dördüncüsü, ondan əyləncə məqsədilə ov mərasimləri zamanı istifadə edilirdi. Eyni zamanda dəvənin də nəqliyyat vasitəsi kimi mühüm rolu olmuşdur.

## ƏDƏBİYYAT


1. Путешественники об Азербайджане. 1 ч. Б.: изд. АН Азербайджанской ССР, 1961.
2. Bünyadov T. Azərbaycanda maldarlığın inkişafı tarixindən. B.: Elm, 1969.
3. Səttarzadə R. Azərbaycan atçılığı. B.: Azərnəşr, 1960.
4. Bünyadov T. Azərbaycanda dəvəçilik. AEM IV c. B.: Elm, 1981.
5. Xəlilov X. Dövlətdə dəvə. B.: İşıq, 1989.
6. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20-cilddə. 1 cild. B.: Elm, 1982.
7. Azərbaycan etnoqrafiyası. 3 cilddə. 1 cild, B.: Elm, 1988.
8. Шихаб ад – Дин Мухаммад ан Насави. Жизнеописание султана Джалал ад – Дина Манкбурны (перевод З. Бунятова) Б.: Элм, 1973.
9. Əfzələddin Xaqani. Seçilmiş əsərləri. B.: EA nəşr, 1956.

10. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20-cilddə. 2 cild. (VII-XII əsrlər) B.: Elm, 1989.
11. Nəsimi. Seçilmiş əsərləri. B.: Azərnəşr, 1973.
1. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20-cilddə. 3 cild, ( XII-XVI əsrlər) B.: Elm, 1984.
2. Solakzadə Mehmed. Tarix. Azərbaycan tarixinə dair iqtibaslar. (tərc. Z.M.Bünyadov) B.: Elm, 1992.
3. Xandəmir. Həbibüstər. (Azərbaycan tarixinə aid parçalar.) tərc. A.Qasımov TİAM № 2151.
4. Книга Орудж-бека Баята – Дон Жуана Персидского (пер. О.Эфендиева, А.Фарзалиева). Б.: Язычы, 1988.
5. Abdulla B. Azərbaycan folкlorunda mifoloji at. B.: Elm, 2000.
6. Mirzə –beк əl Həsən – əl Hüseyni Cünabidi. «Rövzət – üs – Səfəviyyə. TİAM № 3275.
7. Əhmədov Q. Bu günə necə gəlib çıxmışıq...B.: Azərnəşr, 1989.
8. Bünyadova Ş. Nizami və etnoqrafiya. B.: Elm, 1992.
9. Nizami Gəncəvi. Sirlər xəzinəsi. B.: Elm, 1981.
10. Səttarzadə R. X. Həsənov S. O. Qarabağ atı. B.: Azərnəşr, 1974.
11. Nizami Gəncəvi. İsgəndərnamə. B.: Elm, 1983.
12. Venesiyalılar Şah I Təhmasibin sarayında (Miкele Membre və Vinçenso Alessandri) (tərc, ön söz, giriş və şərhlər AMEA – nın müxbir üzvü Oкtay. Əfəndiyevindir.) B.: Təhsil, 2005.
13. Qəhrəmanov C, Xəlilov Ş. Mustafa Zərir. Yusif və Züleyxa. B.: Elm, 1991.
14. Шарафхан ибн Шамсаддин Бидлиси. Шараф-наме. 2 т. (перевод. Е.И.Васильевой). Москва, Наука, 1976.
15. Kitabi – Dədə Qorqud. B.: Yazıçı, 1988.
16. Иоанн де Галонифонтибус. Сведения о народах Кавказа 1404 г. Б.: Элм, 1980.
17. Əbu Bəкr əl-Oütbi əl-Əhəri. Tarix-e Şeyx Üveys. B.: Elm, 1984.
18. Керимов К. Султан Мухаммед и его школа. М., Искусство, 1970.
19. Mustafayev A.N, Cavadov Q.C. Qobustanda dəvəçiliyin etnoqrafiк tədqiqinə dair. AEM V buraxılış. B.: Elm, 1985.
20. Həvilov H. Martda mərəк. B.: Azərnəşr, 1993.

## КОНЕВОДСТВО И ВЕРБЛЮДОВОДСТВО В АЗЕРБАЙДЖАНЕ В СРЕДНИЕ ВЕКА

Ш.Г.БУНЯТОВА

### РЕЗЮМЕ

В средние века в хозяйстве азербайджанского народа большое место занимало коневодство и верблюдоводство. На протяжении всего периода средних веков вторжения иноземцев оказали влияния и на коневодство. Спаривание местных коней с кочевыми привело к появлению новых пород. Значимость коневодства и верблюдоводства подтверждается сведениями различных авторов и образцами миниатюрного искусства. Особый интерес вызывают сведения Микеле Мембре о том, что во дворце шаха Тахмасиба коней держали в конюшне. Он отмечает, что для того чтобы у него была хорошая осанка, мешок с кормом надевали на шею. Конь считался самым лучшим и дорогим подарком в средние века.

## HORSE BREEDİNG AND CAMEL İN AZERBAİJAN İN MİDDLE AGES

S.Q.BUNYATOVA

### SUMMARY

İn Middle Ages in a facilities{an economy} of Azerbaijan people the big place borrowed {occupied} horse breeding and camel. During all period of middle Ages of intrusion of foreigners has influenced and horse breeding. Pairing of local horses with nomadic has led to occurrence of new breeds. The importance of horse breeding and camel proves to be true data of various authors and samples of tiny art. Special interest is caused with data Miкele Membre that in a palace of checк Tahmasib of horses held in a stable. He marкs that that he had good bearing; the bag with forage was put on a necк. The horse was considered as the best and expensive gift in Middle Ages.